LAWELS

# DEKABR AYINDA QANUNVERİCİLİYƏ EDİLƏN MÜHÜM DƏYİŞİKLİKLƏRİN XÜLASƏSİ

*Cari buraxılış –VIII, 06 yanvar, 2021-ci il*

*LAWELS bloqunun Qanunvericilik yenilikləri buraxılışları Azərbaycan Respublikası qanunvericiliyinə edilən dəyişikliklər və digər yeniliklərin aylıq icmalı üzrə cari və xüsusi buraxılışları ehtiva edir.*



## 1. "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edildi.

Bildiyiniz kimi, əmanətlərin tam sığortalanması sxeminin müddəti 2020-ci ilin dekabrın 4-də başa çatmışdır.

Qanunun qüvvədə olma müddətinin 2020-ci il dekabrın 4-də başa çatması ilə əlaqədar həmin müddət dəyişikliklə 2021-ci il 5 aprel tarixinədək (keçid müddəti) uzadılmışdır. Məlumat üçün bildiririk ki, Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurasının qərarı ilə 1 iyun 2020-ci il tarixindən etibarən milli valyutada olan qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 12%, xarici valyutada isə 2,5% müəyyən edilmişdir.

Dəyişikliklərlə ətraflı olaraq burada tanış ola bilərsiniz.

**2. “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edildi.**

Qanuna edilən dəyişikliklər aşağıdakıları ehtiva edir:

- Əmanət anlayışı genişləndiriləәrək tərkibinə *notariusun depozit hesabına mədaxil edilmiş fiziki şəxslərə məxsus vəsaitlər* də daxil edildi. Bu dəyişiklik əsasında notariusların depozit hesablarında qalmış fiziki şəxslərə məxsus pul vəsaitlərinin tam məbləğdə sığortalanması nəzərdə tutulur. Bu dəyişiklik notariuslar vasitəsilə həyata keçirilən alqı-satqı əməliyyatları, xüsusilə ev alqi-satqısı zamanı maliyyə xidməti istehlakçılarının hüquqlarının qorunmasını daha da gücləndirəcək.

- Sığortalanmış əmanət üzrə kompensasiya məbləği 30 min manatdan 100 min manata (xarici valyutada 100 min manat ekvivalentinədək) artırıldı.

- Fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 (iyirmi) min manatadək olan hissəsi qorunan əmanət hesab ediləcək (kompensasiya 20 min manatdan çox olmamaqla). Belə ki, dəyişikliyə qədər fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı məbləğ qorunmurdu. Bu kateqoriyadan olan sahibkarlar maliyyə risklərinə daha həssas olduğundan bank hesablarındakı vəsaitin itirilməsi onların fəaliyyətinin dayanması ilə nəticələnə bilər. Bu baxımdan, fərdi sahibkarların əmanətlərin sığortalanması sisteminə daxil edilməsi hökumətin kiçik sahibkarlığın inkişafı siyasətini dəstəkləyəcək və bank sisteminə etimadın artırılmasına xidmət edəcək. Dəyişiklik edilənə kimi bu kateqoriya üzrə banklarda vəsaitlərin həcmi cəmi 110 mln manat (hesablamalara görə 20 min manata qədər olan hissə 50 mln. manat) təşkil edirdi.

Dəyişikliklərlə ətraflı olaraq burada tanış ola bilərsiniz.

**3. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edildi.**

Bildiyiniz kimi, Mülki Məcəllə 2000-ci ildə qüvvəyə minmişdir və qanunvericilikdə əmanətlərin icbari sığortalanmasına dair tələb müəyyən edildikdən sonra nəzarət zərfi dövlətə məxsus banklar üzrə Azərbaycan dövlətinin subsidiar (əlavə) məsuliyyəti aradan qaldırılmamışdır. Öhdəliklər üzrə subsidiar məsuliyyəti müəyyən edən MM-in 453-cü maddəsinə əsasən “Əgər əsas borclu kreditorun tələbini ödəməkdən imtina etmişsə və ya kreditor irəli sürdüyü tələb üçün ondan ağlabatan müddətdə cavab almamışsa, bu tələb subsidiar məsuliyyət daşıyan şəxsə qarşı irəli sürülə bilər." Göstərilənləri nəzərə alaraq, müvafiq dəyişikliklə MM-in 950.1-ci maddəsinin 2-ci cümləsi çıxarılmışdır.

Dəyişikliklərlə ətraflı olaraq burada tanış ola bilərsiniz.

**4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edildi.**

Dəyişikliyə əsasən, Məcəllənin bəzi maddələrinin sanksiya hissəsində müvafiq dəyişikliklər edilmişdir. Bunlar aşağıdakı kimidir:

- Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə vəzifəli şəxslərə tətbiq edilən cərimənin miqdarında dəyişiklik edilərək 4 min manatdan 5 min manatadək, hüquqi şəxslərə tətbiq edilən cərimənin miqdarı isə 5 min manatdan 11 min manatadək müəyyən edilmişdir.

- Fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına görə müəyyən olunmuş cərimənin miqdarı vəzifəli şəxslərdə 300 manat məbləğinə, hüquqi şəxslərdə 600 manat məbləğinə qaldırılmışdır.
- Həmçinin bu xətanın təkrar törədilməsinə görə nəzərdə tutulmuş cərimənin miqdarı vəzifəli şəxslərdə 600 manat məbləğinə, hüquqi şəxslərdə 1200 manata qaldırılmışdır.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.

**5. "Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə verilməsi Qaydası"nda dəyişiklik edildi.**

Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi vasitəsilə, qiymətli kağız mülkiyyətçiləri barədə məlumat isə Milli Depozit Mərkəzinin İnformasiya Sistemi vasitəsilə verilir. Məlumatların vahid informasiya sistemi ilə deyil, ayrı-ayrı informasiya sistemləri vasitəsilə təqdim olunduğunu nəzərə alaraq, qeyd olunan proseduru tənzimləyən qaydaları özündə əks etdirən başqa bir hüquqi akta zərurət olmadığından informasiya sistemləri haqqında əsasnamə Qaydadan çıxarılmışdır.

Eyni zamanda Qaydanın 5.2-ci bəndinə əsasən monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər gücləndirilmiş elektron imzadan istifadə etməklə informasiya sistemində qeydiyyatdan keçirlər. Bu məqsədlə onlar tərəfindən informasiya sistemində elektron ərizə forması doldurulmalı idi. Belə ərizə formasının təsdiq edilməsinə zərurət olmadığını nəzərə alaraq 5.2-ci bəndə müvafiq dəyişiklik edilmişdir.

Həmçinin monitorinq iştirakçılarının və monitorinqdə iştirak edən digər şəxslərin nominal saxlayıcı hesablarında olan benefisiar mülkiyyətçilərə dair məlumatlarla bağlı sorğularının 7 iş günü müddətində cavablandırılması müəyyən edilmişdir.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.

**6. Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu və Azərbaycan Respublikasında 2021-ci il üçün ehtiyac meyarının həddi haqqında qanunlar qəbul edildi.**

Qəbul edilən qanunlarla, 2021-ci il üçün ehtiyac meyarının həddi 170 manat, 2021-ci il üçün yaşayış minimumu ölkə üzrə 196 manat, əmək qabiliyyətli əhali üçün 207 manat, pensiyaçılar üçün 162 manat, uşaqlar üçün 175 manat məbləğində müəyyən edilmişdir.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.

**7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və "Ətraf mühitin mühafizəsi haqqında" qanuna dəyişiklik edildi.**

Edilən dəyişikliyə əsasən, qalınlığı 15 mikrona qədər olan polietilen torbaların idxalı, istehsalını, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılmasını və ya verilmesini 2021-ci il yanvarın 1-dən qadağan edilir. Eyni zamanda birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən

idxalı, istehsalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi də 2021-ci il iyulun 1-dən məhdudlaşdırılacaqdır. Bu müddəaların pozulması İnzibati Xətalar Məcəlləsinə edilən 275.4-cü və 275.5-ci maddələrə uyğun olaraq məsuliyyət yaradacaqdır. Həmin maddələrə əsasən:

- Qalınlığı 15 mikrona qədər olan polietilen torbaların, habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalına, istehsalına, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılmasına və ya verilməsinə görə – inzibati xətanın bilavasitə obyekti olan plastik materiallar müsadirə edilməklə, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

- Qeyd olunan xəta inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə – inzibati xətanın bilavasitə obyekti olan plastik materiallar müsadirə edilməklə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.

**8. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edildi.**

Dəyişiklik "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanununun icrası ilə əlaqədar qəbul edilmişdir və aşağıdakıları nəzərdə tutur:

- Əmək Məcəlləsinə işçinin hüquqları və işəgötürənin vəzifələri sırasına işçilərin icbari tibbi sığortası ilə bağlı məsələlər daxil edilmişdir ("Tibbi sığorta haqqında" qanuna əsasən işəgötürən sığortalı, işçi isə sığorta olunan hesab edilir və işçinin sığortalanması öhdəliyi işəgötürən tərəfindən həyata keçirilir);
- Əmək Məcəlləsinə icbari tibbi sığorta ilə əlaqədar 307-1-ci maddə əlavə edilmişdir. Həmin maddəyə əsasən işəgötürən "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada hər bir işçinin icbari tibbi sığortalanmasını təmin etməlidir. Əmək müqaviləsində işçinin icbari tibbi sığortalanması barədə müvafiq məlumatlar mütləq göstərilməlidir.
- Ailə Məcəlləsinə edıən dəyişikliyə əsasən nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin və bununla əlaqədadar məsləhətlərin verilməsinin maliyyələşdirilməsi müvafiq olaraq dövlət və ya yerli büdcənin vəsaitləri hesabına ("Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfində nəzərdə tutulduğu halda isə icbari tibbi sığorta vəsaitləri hesabına) həyata keçiriləcək.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.